# AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ

## ƏMR

№ ü/101-2

Bakı şəhəri                                                    "10" iyul 2020 il

**Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi yanında İctimai şuranın seçki komissiyasının yaradılması haqqında**

"İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin (bundan sonra – Agentlik) fəaliyyətinə ictimai nəzarətin həyata keçirilməsi, Agentliyin fəaliyyətində aşkarlığın və şəffaflığın bərqərar edilməsi, habelə dövlət siyasətinin formalaşdırılması, icrası və qərarların qəbulu zamanı ictimai rəyin nəzərə alınmasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 30 may tarixli 171 nömrəli qərarı ilə təsdiq edilmiş "İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə"nin 2.3-cü bəndini və Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"nin 5.5.10-cu yarımbəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

1. Agentliyin yanında İctimai şura üzvlüyünə seçkilərin təşkili məqsədilə aşağıdakı tərkibdə İctimai şuranın seçki komissiyası yaradılsın:

**Komissiyanın sədri:**

Rəşad Mafusov – Agentliyin sədr müavini

**Komissiyanın üzvləri:**

Orxan Mikayıl - Qeydiyyat və sahibkarlarla iş şöbəsinin müdiri;

Əkbər Əliyev - Qida zəncirinə nəzarət və regional bölmələrlə iş şöbəsinin müdiri;

Mansur Piriyev - İnformasiya təminatı və innovativ həllər şöbəsinin müdiri;

Gündüz Osman- Azərbaycan İnternet Forumunun prezidenti;

Rahilə Mehdiyeva- Sosial-İqtisadi və Ekoloji İnkişaf İctimai Birliyinin sədri;

Əbdülhüseyn Abdullayev- Azərbaycan Gübrə İstehsalçıları və İdxalatçıları Assosasiyasının sədri;

Gülbəniz Qənbərova- Azərbaycan Kənd Qadınları Assosasiyasının sədri;

Çingiz Dadaşov- Demokratik İnkişafın Təşviqi İctimai Birliyinin sədri.

**2.** Komissiya İctimai şuraya seçkilərin təşkili ilə bağlı zəruri tədbirləri görsün.

**3.** Agentlik Aparatının İnformasiya təminatı və innovativ həllər şöbəsinin müdiri Mansur Piriyev İctimai Şura üzvlüyünə seçkilər barədə elanın Agentliyin rəsmi internet səhifəsi və mövcud olan digər vasitələrlə (kütləvi informasiya vasitələri, məlumat lövhəsi və s.) ictimailəşdirilməsini təmin etsin.

**4.** Bu əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Əsas:** Agentlik Aparatının Qeydiyyat və Sahibkarlarla iş şöbəsinin müdiri **Orxan Mikayılın** 16 iyun 2020-ci il tarixli D2/39/001944 nömrəli Xidməti məruzəsi.

**Sədr** **Qoşqar Təhməzli**